**UOT: 78.**

**Vüsalə Kəngərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistr**
**e-mail: kengerli78@bk.ru**

# GƏNCƏ ŞƏHƏRİNİN MUSİQİ MÜHİTİNƏ BİR NƏZƏR

**Xülasə:** Təqdim olunmuş məqalə Azərbaycanın qədim məskənlərindən biri olmuş Gəncə şəhərinin musiqi mühitinin tədqiq olunmasına həsr olunmuşdur. Məqalədə Gəncə şəhərində formalaşmış muğam sənəti, aşıq yaradıcılığı, autentik folklor barədə söz açılır. Eləcə də, klassik musiqinin təməli və inkişafı, musiqi təhsili barədə məlumat verilir.

**Açar sözlər**: Gəncə, musiqi mühiti, folklor, muğam sənəti, aşıq yaradıcılığı, autentik.

Cənub-Şərqdə, Kiçik Qafqazın ətəyində, Gəncə-Qazax düzənliyində, Gəncə çayının hər iki sahilində yerləşən Gəncə şəhəri Azərbaycanın, eləcə də Şərqin ən qabaqcıl mərkəzlərindən biri kimi tanınmışdır. Gəncə şəhəri X əsrdə Şəddadilər dövlətinin paytaxtı, XII-XIII əsrlərdə Atabəylər dövlətinin mərkəzi, XX əsrin əvvəllərində müsəlman Şərqində ilk Demokratik Respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin birinci paytaxtı olmuşdur.

Əski zamanlardan etibarən Gəncə şəhəri Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmişdir. Burada müxtəlif əsrlərə aid memarlıq abidələrini – Alban məbədi (VI-VII əsrlər), Comərd Qəssab türbəsi və İmamzadə türbəsi (VIII əsr), Qala divarları (IX-X əsrlər) və (XVI əsr), Gəncəçay üzərində qədim körpünün qalıqları (XI-XII əsr), I Şah Abbas məscidi (XVII əsr), Karvansaray (XVII əsr), Xan bağı (XVII) görmək mümkündür. Təkcə memarlıq abidələri ilə deyil, həmçinin ədəbiyyat mərkəzi hesab olunan Gəncə şəhəri Əbülüla Gəncəvi (XI əsr), Məshəti Gəncəvi (XI əsr), Nizami Gəncəvi (XII əsr), Mirzə Şəfi Vazeh (XIX əsr) kimi ədiblərin doğma yurdu hesab olunur.

Qədim Gəncə və Gəncəbasar bölgəsində ozan-aşıq sənətinin bir çox nümayəndələri, xanəndə və sazəndələr yaşayıb yaratmışdır. Şəhərin zəngin musiqi mədəniyyətinə malik olmasını X-XII, XIX əsrlərdə elmi və ədəbi mənbələr sübut edir. Görkəmli şair və mütəfəkkir Nizami Gəncəvinin (XII əsr) əsərlərində

Azərbaycanın, o cümlədən, Gəncə şəhərinin zəngin musiqi mədəniyyətinə malik olması bu nümunələrə misal ola bilər. Belə ki, dahi şairin əsərlərində saray və xalq musiqisi, məişət və hərbi musiqi, vokal və instrumental musiqi, musiqi ifaçıları, musiqi alətləri, muğam sənəti, musiqinin tərbiyəvi əhəmiyyəti haqqında bir çox məsələlər poetik formada şərh edilmişdir.

Yaradıcılığı XVIII əsrin sonları – XIX əsrin əvvəllərinə təsadüf edən, Qafqazda və Avropada "Gəncəli müdrik" adı ilə tanınan şair Mirzə Şəfi Vazehin öz lirik şeirlərini "Nəğmələrim", "Təranələrim" adlandırması Gəncədə şeirə və musiqiyə olan münasibətin bariz nümunəsidir. Onun şeirlərinə dünyanın bir çox bəstəkarları (F.List (1811-1886), A.Rubinşteyn (1829-1894), İ.Brams (1833-1897), E.Qriq (1843-1907) və b.) müraciət edərək gözəl musiqi əsərləri bəstələmişlər.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın digər mədəni mərkəzlərində (Bakı, Şamaxı, Şuşa) olduğu kimi, Gəncə şəhərində də musiqi məclisləri fəaliyyət göstərmişdir. Malıbəyli Həmid, Məşədi Cəmil Əmirov kimi sənətkarların Gəncəyə köçməsi bu musiqi məclislərinin canlanmasına zəmin yaratmışdır. Onlar yerli musiqiçilərlə birlikdə şəhərin musiqi həyatında xüsusi rol oynamışlar. Gəncənin musiqi məclislərində tarzən Məşədi Cəmil Əmirov, Zərif Qayıbov, xanəndələr Məşədi Məmməd Fərzəliyev, Malıbəyli Həmid, Musa Şuşinski, kamança ifaçısı Böyükkişi Əliyev və başqaları iştirak etmişlər.

Ümumiyyətlə, Məşədi Cəmil Əmirov Gəncə şəhərində, musiqi mühitinin formalaşmasında müstəsna xidmətlərə malik olmuş sənətkarlardan biri olmuşdur. Belə ki, tez-tez musiqi gecələri, teatr tamaşaları və konsertlər verərdi. O, 1913-cü ildə Gəncə şəhərinin musiqiçiləri ilə birlikdə "Şərq" konsertlərini təşkil edir. Bu konsertlərdə Türkiyədən gətirdiyi ud və qanun musiqi alətlərini dinləyicilərə təqdim edir. 1915-ci ildə müəllifi olduğu "Seyfəl-mülk" operasını, daha sonralar "Namuslu qız" (1923) operettasını ilk dəfə olaraq Gəncə şəhərində tamaşaya qoyur. Məşədi Cəmil Əmirov şəhərdə musiqi məktəbi açmaq fikrində idi. Lakin Çar Rusiyası buna icazə vermirdi. Bunun əvəzində Məşədi Cəmil Gəncə şəhərində muğam dərnəyi yaradır. Burada Seyid Şuşinski, Bülbül, Zülfü Adıgözəlov, Əli Cavad oğlu, Əbdürrəhman Fərəcov və Musa Şuşinski kimi sənətkarlar dərnəkdən yararlanır. Azərbaycan musiqiçilərinin yaradıcılığını tədqiq etmiş F.Şuşinski "Azərbaycan xalq musiqiçiləri" kitabında yazır: "Məşədi Cəmil klassik xanəndələrin sənətini gənc ifaçılara aşılamaq üçün Gəncənin

Sərrabilər məhəlləsində olan mənzilində vaxtaşırı məclis təşkil edir. Bu məclislərə Məşədi Məhəmməd Fərzəliyevi, Seyid Şuşinskini Ş.Rzabalanı, Böyükkişi Əliyevi, Bülbülü dəvət etməklə gənc ifaçılarla yaxından məşğul olardı. O, muğamat gecələri keçirər, hər bir muğamı oxumaq üçün müsabiqələr elan edər və birinciliyə layiq olanları mükafatlandırardı. Bir qədər keçəndən sonra o öz mənzilində muğamat kursları açaraq gənc ifaçılara klassik muğamların yollarını öyrədər, həm də onların musiqi təhsili ilə məşğul olardı" (6; s. 62).

Bir müddətdən sonra Məşədi Cəmil Əmirov arzusunda olduğu musiqi məktəbinin açılmasına nail olur. Bu musiqi məktəbində Fikrət Əmirov, Qəmbər Hüseynli, Telman Hacıyev kimi bəstəkarlar təhsil almış və gələcəkdə Azərbaycan musiqi mədəniyyətinə böyük töhfələr qatmışlar.

Gəncənin ifaçılıq sənətinin inkişafında xanəndə Məşədi Məmməd Fərzəliyevin böyük rolu olmuşdur. Xanəndənin istedadı - qaltanlı və əzəmətli, zildə vurduğu zəngulələri şəhər sakinlərinin daim marağına səbəb olurdu.

Daha bir xanəndə isə Musa Şuşinskidir. O, guşəxan, yəni muğamdan bir neçə guşəni ayrı-ayrılıqda ifa edən və yaxud muğama bir çox guşələr əlavə edib oxuyan xanəndə olmuşdur. 1920-ci ildə Gəncədə yeni yaradılmış xalq teatrında Məşədi Cəmil, Malıbəyli Əsgər və Bülbül ilə birlikdə çalışır. Gəncənin mədəni həyatında Musa Şuşinskinin özünəməxsus rolu olmuşdur. O, həm xalq teatrında opera artisti kimi çıxış edir, həm də yeni açılmış musiqi məktəbində muğam dərsi deyirdi.

Musa Şuşinski uzun illər Gəncə Dövlət Filarmoniyasında və teatrında xanəndə-artist kimi çalışmış, 1923-cü ildə Məşədi Cəmil Əmirovun yaratdığı musiqi məktəbində muğam sinfi açaraq, gənc xanəndələr nəslinin yetişməsində əlindən gələni etmişdir. O, klassik Azərbaycan xanəndələrinin gözəl ənənələrini davam etdirmişdir. Sevimli tələbələri Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov ifaçılıq sənətində müəlliminin yolu ilə gedərək onun guşəxanlığını davam etdirmişlər. Musa Şuşinskinin tələbələrindən Vaqif Qurbanoğlu (əslən Ərdəbilli, 1966-1968-ci illərdə ondan fərdi dərs alıb), Sərdar Cabbar oğlu Bağırov (əslən Daşkəsəndən olub 1959-cu ildə Gəncə şəhərində oxuyub və işləmişdir) da öz müəllimlərindən klassik muğam sənətinin sirlərini, milli muğamlarımızın incəliklərini öyrənərək yeni nəslə ötürmüşlər.

Gəncə şəhəri hələ qədim zamanlardan ozan-aşıqlar məskəni kimi məşhur olmuşdur. Bunu şəhərdə mövcud olan Ozanlılar məhəlləsinin yerləşməsi də sü-

but edir. Burada Dədə Yediyar, Dirili Qurban kimi aşıqların tarixi deyişmələri olmuş, "Kərəmi" havaları məhz bu torpaqdan yetişərək yayılmışdır.

Gəncə aşıq məktəbi Gəncəbasar aşıq mühitinə daxildir. Bu aşıq mühitinə Goranboy, Daşkəsən, Şəmkir, Tovuz, Gədəbəy, Qazax və Gəncə daxil olmaqla böyük bir ərazini əhatə edən aşıq məktəbləri daxildir. Gəncə aşıqları tarixi ənənələri qoruyub mühafizə edən və milli xüsusiyyətləri bu günədək yaşadan məktəb-mühit olaraq Azərbaycan aşıq sənətinin inkişafında xüsusi yer tutur.

XVI-XVIII əsrlərdə Gəncədə "Əsli və Kərəm", "Yaralı Mahmud" kimi dastanlar yaranmışdır (ona görə də "Kərəmilər" saz havaları Gəncədə daha çox meydana gəlmişdir), bu dövrün yazılı abidəsi sayılan "Şəhriyar" dastanında isə Gəncə əsl ozan, aşıq meydanı kimi təsvir edilmişdir. Bu dastanların mətnlərində Gəncə çox güclü ozan-aşıq mühiti kimi təsdiqini tapır. Burada güclü ustad-şagird ənənəsi, sənətə qarşı ciddi tələbkarlıq mövcud olmuşdur. Aşıq sənəti Gəncədə xan sarayında da böyük nüfuz qazanmışdır. Yuxarı zümrənin övladları aşıq sənətinə bələd olmalarına görə həmişə öyünmüşlər.

Gəncəbasar, o cümlədən, Gəncə aşıqları Azərbaycan aşıqlığının əsasən "təkkəkökənli aşıqlar" (sufi dərviş ocağına bağlı olan və aşıqlığa gələn (ozan-sənətkarlar) qolunu təşkil edir. Gəncə aşıq sənətinin təkkə ilə bağlılığı ifa tərzində özünü göstərir. Belə ki, ifa zamanı saz-balaban birliyi, sürətli oxu tərzinə üstünlük verilməsi, rəqsin qabarıqlığı Gəncə aşıq mühitində təkkə-təriqət ocağından gələn xüsusiyyətləri əks etdirir.

Ümumiyyətlə Gəncə aşıq məktəbi özünəməxsus ifa tərzi ilə seçilmişdir. Gəncə aşıqlarını balabansız təsəvvür etmək mümkün deyildir. Bununla yanaşı, Gəncə aşıqları rəqs etməyə, şuxluq göstərməyə, dastan söyləməyə meyillidirlər, ona görə də onların repertuarına daxil olan havaların sırasında oyun havalarının çoxluğu bununla izah olunur. Bundan əlavə, Gəncə aşıqları aşıq şeirinin mürəkkəb, çətin formalarını nümayiş etdirib öz məharətlərini göstərməyə çalışırlar.

Gəncə aşıqlarının repertuarı olduqca zəngin və mürəkkəbdir. "Əsli və Kərəm", "Dilqəmi" dastanlarından qəmli havalar, "Aşıq Hüseyni", "Aran gözəlləməsi", "Vanağzı", "Ovşarı" kimi şən və şux havalar, "Misri Koroğlu", "İrəvan çuxuru", "Qəhrəmani", "Cəngi Koroğlu" kimi döyüşkən havalar onların repertuarına daxil olmuşdur.

Gəncə aşıq sənətinin ustadlarından birincisi Dədə Yedigardır. XX əsrin əvvəllərində Gəncədə aşıq yaradıcılığı böyük coşğunluq dövrünü yaşamışdır. Yerli

aşıqlardan Aşıq İsgəndər, Cəmil və başqaları ilə yanaşı, bura müxtəlif bölgələrdən, xüsusilə də, Göyçədən istedadlı ifaçı aşıqlar gəlmişlər. Bu dövrdə Gəncənin Şahsevənlər hissəsində Aşıqlar məhəlləsi yaranmışdır. Aşıq ifaçılığı sahəsində Respublikanın Əməkdar incəsənət xadimi İslam Yusifov, Qara Movlayev, Qaraçıoğlu İbrahim, Qazaxlı Aşıq Məhəmməd, Aşıq İsrafil, Aşıq Hümbət və başqaları böyük ad-san qazanmışlar. Sonrakı nəsil Gəncə aşıqlarını Aşıq Cümə, Aşıq Sirac, Cavan Teymur, Aşıq Abuzər, Aşıq Bayram və başqaları təmsil etmişlər. Aşıq İslam gözəl saz çalması, Qaraçıoğlu İbrahim və Aşıq Zeynal isə Koroğlu aşığı kimi seçilmişlər. Uzun illər aşıqlar sənətə dərindən bağlı olduğu üçün Aşıq İslamı, ondan sonra Aşıq Cüməni, bu gün isə Aşıq Mayıs Gəncəlini aşıq sənətinin bilicisi hesab edirlər. Aşıq Əjdər, Aşıq Yaşar, Aşıq İlyas, Aşıq Eldar, Aşıq Polad, balabançı Atali, Cəmil, Barxudar, Binnət və başqaları bu gün də aşıq sənətinin ən yaxşı ifaçıları kimi fəaliyyət göstərirlər. Onlar Gəncə ozanlarının əsrlərdən bəri çağlayıb gələn zəngin ənənələrini davam etdirirlər.

Autentik musiqi folkloru baxımından da Gəncə şəhərində müxtəlif janrlara rast gəlinir. Bu janrlara misal olaraq, mövsüm mərasim nəğmələri ("Üzərlik yandırma", "Yağışı kəsmək", "Duz yandırma mərasimi", "Xıdır Elləz", "Xıdır Nəbi"), toy mərasim nəğmələri ("Quda-quda", "Başmaq çırpma", "Halay oyunu", "Bəy tərifi", "Verdik bir dana"), əmək nəğmələri (holavarlar, sayaçı nəğmələr), yas mərasim nəğmələri (mərsiyə, bayatı, qara laylalar), xalq mahnıları ("Bir otaq tikdirdim", "Ay gülüm", "Yarı özgələrə yar olan canım", "Qurban olum qoltuğunda bayaza", "Cürdəyi gördüm nənə", "Hündür barıdan aşaraq", "Bulaq başı" və s.), uşaq oyun nəğmələri ("A tərxana tərxana", "O qara qazan dolumu", "Qıy qılıncım", "Bənövşə", "Göz bağlayıcı"), düzgülər, bayatıları və s. demək olar. Qeyd etmək lazımdır ki, autentik musiqi folklorunun mövcudluğu barədə məlumatı "Gəncə folkloru antologiyası"nda (I kitab, II kitab) görmək mümkündür.

Gəncə şəhərində xalq musiqisi ilə yanaşı, klassik bəstəkarlıq məktəbinə, ümumiyyətlə musiqi təhsilinə böyük önəm verilmişdir. Ötən əsrin əvvəllərində dahi Ü.Hacıbəyli Gəncə şəhərinə xüsusi diqqət göstərir. Belə ki, bəstəkar burada musiqi təhsil sisteminin, filarmoniyanın yaradılmasında, savadlı musiqiçilərin yetişməsində böyük rol oynamışdır. Məhz bu səbəbdəndir ki, XX əsrdə Gəncədə musiqi təhsili sistemində böyük irəliləyiş baş verir. Əsrin I yarısında Üzeyir bəyin xüsusi diqqəti və rəhbərliyi altında Gəncədə müsəlman müəllimləri üçün

altı həftəlik musiqi kursları təşkil olunmuş, daha sonra 1923-cü ildə ilk musiqi məktəbi, 1929-cu ildə Musiqi Texnikumu, 1939-cu ildə isə Gəncə Dövlət Filarmoniyası təşkil edilmişdir.

Gəncə şəhərində bir sıra musiqi kollektivlərinin yaradılmasında da Ü.Hacıbəylinin xidmətləri əvəzsiz olmuşdur. 1930-cu ildə Gəncədə ilk xalq çalğı alətləri ansamblının təşkil edilməsi də onun təşəbbüsü ilə baş vermişdir.

Gəncə dünya şöhrətli bəstəkarımız, simfonik muğam janrının yaradıcısı Fikrət Əmirov, Q.Hüseynli, T.Hacıyev, Ə.Tağıyev, F.Nağıyev kimi bəstəkarlar, istedadlı tarzən Zərif Qayıbov, dirijor Nəriman Əzimov, Arif Məhərrəmov, müğənni-aktyor M.Əhmədov, müğənni İ.Mehdiyev və bir çox görkəmli musiqi xadimlərinin vətənidir.

XX əsrin II yarısında Gəncənin musiqi həyatının inkişafı daha da sürətlə gedir. Bu dövrdə şəhərdə təhsil ocaqlarının sayı artır, "Göygöl" Mahnı və Rəqs Ansamblı, mədəniyyət ocaqları, Azərbaycan Bəstəkarlar İttifaqının Gəncə Təşkilatı yaradılır.

Çağdaş dövrümüzdə Gəncədə 5 musiqi məktəbi, İncəsənət məktəbi, Musiqi kolleci, Humanitar Kollecdə musiqi şöbəsi, Gəncə Dövlət Universitetində ali təhsilin bakalavr və magistr səviyyəsində musiqi müəllimləri hazırlayan "Musiqi müəllimləri" kafedrası, AMEA-nın Gəncə bölməsində "İncəsənət" şöbəsi, F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblı, Xalq Çalğı Alətləri Orkestri, Kamera Orkestri fəaliyyət göstərir.

Bütün bunları nəzərə alaraq Gəncə şəhərinin musiqi mühitinin öyrənilməsi və elmi əsaslarla tədqiq edilməsi aktuallıq kəsb edir.

**Ədəbiyyat siyahısı:**

1. Gəncə folkloru antologiyası, I kitab, Gəncə, 2003, 486s.
2. Gəncə folkloru antologiyası, II kitab, Gəncə, Əsgəroğlu, 2008, 315s.
3. İsmayılzadə R.Gəncənin musiqi salnaməsi. Gəncə, Elm mərkəzi, 2007.
4. Qasımlı M. Ozan-Aşıq sənəti, B.: "Uğur", 2007, 304s.
5. Qurbanəliyeva S.Gəncənin musiqi həyatına bir nəzər. GDU "Elmi xəbərlər", N2, Gəncə, 2012, s.275-277
6. Şuşinski F. Azərbaycan xalq musiqiçiləri, B.: "Yazıçı", 1985, s. 62

**Вусала Кенгерли**

## ВЗГЛЯД НА МУЗЫКАЛЬНУЮ СРЕДУ ГОРОДА ГЯНДЖИ

**Резюме:** Представленная статья посвящена изучению музыкальной среды города Гянджа, одного из древнейших поселений Азербайджана. Речь идет о сформировавшемся в Гяндже искусстве мугама, ашугском творчестве, аутентичном фольклоре. Также предоставляется информация об основах и развитии классической музыки, музыкального образования.

**Ключевые слова**: Гянджа, музыкальная среда, фольклор, искусство мугама, ашугское творчество, аутентичный фольклор.

**Vusala Kangarli**

## A LOOK AT MUSICAL ENVIRONMENT OF GANJA CITY

**Summary:** The presented article is dedicated to the study of the musical environment of Ganja, one of the ancient cities of Azerbaijan. We are talking about the art of mugham, ashug creativity, authentic folklore formed in Ganja. It also provides information about the foundation and development of classical music, music education.

**Key words:** Ganja, music environment, folklore, mugham art, ashug creativity, authentic folklore.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**